# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №16 (86) • 30.04.2012


AzadliqRadiosu.az


**Gələn aydan «07» Azərbaycana buraxılmayacaq** səh.2

**Azərbaycanla sərhəddə 3 erməni əsgəri öldürülüb** səh.4

**Prezident Bakıda bulvarın təmirinə daha 5 milyon manat verdi** səh.5

**Xarici diplomatlar müxalifət liderləri ilə görüşdü** səh.8

**«Qaynar Xətt»dən hüquqşünaslardan nəyi soruşurlar?** səh.10

**Asteroiddən qorxmayın** səh.14


## Maraqlı videolar

- Prezidentin qol saatı...
- İsa Qəmbər və Əli Kərimlinin qol saatları neçəyədir?
- Xədicə İsmayılova Bakı prokurorluğuna cavab verir

www.AzadliqRadiosu.az

## Damı şiferdən olan evlər niyə siyahıya alınır?



Bakı və bölgələrdə asbest şiferli evlərin örtüyünü dəyişdirmək üçün həmin evlərin siyahıya alınması başlanıb. Bu işin Nazirlər Kabinetinin sərəncamı ilə həyata keçirildiyi bildirilir.

səh.9

## Саакашвили озвучил условие своей отставки



*Президент Грузии Михеил Саакашвили, в ответ на высказывания своего российского коллеги Дмитрия Медведева, заявил, что готов немедленно подать в отставку, если Россия признает самопровозглашенные республики Абхазия и Южная Осетия частью грузинской территории.*

səh.7

## "Əksəriyyətimizin övladı qüsurla doğulub"



"O zaman respublika hərbi komissarı general Qasımov əmr verdi. Ehtiyatda olan hərbçi kimi, heç həkim müayinəsindən keçmədən Salyan kazarmasına apardılar. Orda hərbi forma geyindirdilər. Dedilər gedib Qazaxıstanda işləyəcəksiz ".

səh.11

## Missiya



# Oqtay Gülalıyevin səhhətində problemlər yaranıb



Oqtay Gülalıyev

*Bakıdakı 3 saylı istintaq təcridxanasında saxlanılan hüquq müdafiəçisi Oqtay Gülalıyevin səhhətində problemlər yaranıb. Bu barədə AzadlıqRadiosuna onun vəkili Yalçın İmanov məlumat verib: «Mən 2 gün, aprelin 26-27-si onunla ardıcıl olaraq görüşdüm. Birinci dəfə Oqtay ağrılar üzündən əyilmiş vəziyyətdə dayanmışdı. Aprelin 27-də görüşəndə isə dərmanlar qəbul etmişdi, səhhəti bir qədər yaxşı idi. Dediyinə görə, mədə-bağırsaq xəstəliyinə görə 2 il əvvəl müalicə alıb və sağalıbmış. Amma aprelin 8-də Sabirabad Rayon Polis Şöbəsində fiziki zorakılığa məruz qalandan sonra ağrılar yenidən baş qaldırıb. Bildirdi ki, onu 1 gün acsusuz, iyli-qoxulu darısqal otaqda saxlayıblar».*

**«O, YENİDƏN SABİRABAD POLİSİNƏ QAYTARILMASINI İSTƏMİR»**

Yalçın İmanov deyir ki, Oqtay Gülalıyev Sabirabad polisində qeyri-insani rəftarla üzləşdiyindən yenidən ora qaytarılmasını istəmir. Amma işin rayon polisindən alınıb Daxili İşlər Nazirliyinin Baş Təhqiqat və İstintaq İdarəsinə verilməsi barədə vəkillərin vəsatəti təmin olunmayıb. Bildirilib ki, hadisə Sabirabadda baş verdiyindən istintaqı da rayon polisi aparmalıdır. Sabirabad Rayon Polis Şöbəsinin rəisi Mübariz Quliyev isə AzadlıqRadiosuna müsahibəsində Oqtay Gülalıyevə hər hansı pis rəftarı təkzib edib:

«Oqtay Gülalıyev adamlarla davranışında kobudluğa yol verib. Sakinlərin şikayəti əsasında da rayon məhkəməsi onun barəsində inzibati qərar çıxarıb. Oqtay Gülalıyevlə istədiyiniz vaxt sizi görüşdürə bilərəm. Özündən də soruşa bilərsiniz - ona nə bir söz deyilib, nə təzyiq edilib, nə də təhqir olunub».

**«ARTIQ MÜAYİNƏYƏ GÖSTƏRİŞ VERİLİB»**

Vəkil Yalçın İmanov deyir ki, artıq 3 saylı İstintaq Təcridxanasının rəisi Aslan Mirzəyev Oqtay Gülalıyevi müayinə etməyi tapşırıb: «Amma Oqtay istəyir ki, 2 il əvvəl onu müalicə edən həkim təcridxanaya dəvət olunsun. Mən bu məsələni də təcridxana rəisinin diqqətinə çatdırdım. Rəis dedi ki, hələ müayinə olunsun, baxarıq. Ehtiyac yaransa, dəvət edərik».

**ONU 3 İL HƏBS GÖZLƏYİR**

«Kür» Vətəndaş Cəmiyyəti Qərargahının koordinatoru Oqtay Gülalıyev Minbaşı kənd bələdiyyəsinin sədri Rufulla Qocayevin şikayəti əsasında aprelin 8-də saxlanılıb. Bələdiyyə sədri Oqtay Gülalıyevin onu təhqir etdiyini bildirirdi. İttiham təsdiqlənərsə, o, 3 il azadlıqdan məhrum edilə bilər. Oqtay Gülalıyev isə həbsini Kür daşqınlarına ayrılan vəsaitin araşdırılması ilə əlaqələndirir.

***Maarif Çingizoğlu***

# Məhkumlara kitab hədiyyə edildi



14 saylı həbsxana, məhkum Bəxtiyar Hacıyev (Fotolar Aydın Xanın Facebook profilindən götürülüb)

*Qobustanda yerləşən 14 saylı həbsxanadakı məhkumlara 300-dən çox kitab bağışlandı. Bu, Yeni Yazarlar və Sənətçilər Qurumunun hədiyyəsidir. Bu tədbir ilə qurum XII Bakı Kitab Bayramının silsilə tədbirlərinə start verdi. Həbsxanada düzənlənən görüşdə təkcə görüşə qatılan şairlər Zaur Qəriboğlu, Yusif Nazim, Mübariz Cəmilbəyli, Orxan Məmmədov yox, məhkumlar da öz şeirlərini deyiblər.*

Yeni Yazarlar və Sənətçilər Qurumunun sədri Aydın Xan çağdaş Azərbaycan mədəniyyəti, ədəbiyyatı, ədəbi prosesi, kitab işi barədə müxtəsər məlumat verdi, məhkumların yaradıcılıq imkanlarıyla maraqlandı. Qərara alındı ki, bu cür tədbirlər davamlı keçirilsin, şair-məhkumların qələm məhsullarının dövri mətbuat və internetdə yayımlanması ilə bağlı işlər gücləndirilsin. Sözügedən görüşdə beynəlxalq təşkilatların vicdan məhbusları kimi tanıdığı gənc fəal Bəxtiyar Hacıyev, Müsavat Partiyası Gənclər Təşkilatının sədri Tural Abbaslı və onun müavini Əhəd Məmmədli, AXCP Rəyasət Heyətinin üzvü Sahib Kərimli də iştirak ediblər.



Aydın Xan vicdan məhbusları ilə kitabları müzakirə edir

# Gələn aydan «07» Azərbaycana buraxılmayacaq

**Mayın 1-dən Rusiya istehsalı olan «VAZ-2107» markalı avtomobillərin Azərbaycana idxalı dayandırılacaq. Bu barədə aprelin 25-də Gömrük Komitəsində keçirilən brifinqdə qurumun rəhbəri Aydın Əliyev deyib. Və artıq Rusiya hökumətinin məlumatlandırıldığını bildirib. Qurum sədrinin sözlərinə görə, bu ilin oktyabrında «VAZ-21014» və «VAZ-21015» markalı avtomobillərin də Azərbaycana idxalına qadağa qoyulacaq: «Bu avtomobillərdə standartlara uyğun yeniliklər aparıldığı təqdirdə, maşınlar ölkəyə buraxıla bilər».**

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin bu ilin fevral ayında verdiyi qərara əsasən, mayın 1-dən avtomobil nəqliyyat vasitələrində «ABS» əyləc sistemi və ən azı bir təhlükəsizlik yastığı olmayan avtomobillərin idxalına və istehsalına icazə verilməyəcək.

***Səadət Akifqızı***

# Xədicə İsmayılova Bakı prokurorluğuna cavab verir


Xədicə İsmayılova

*Aprelin 27-də AzadlıqRadiosunun əməkdaşı Xədicə İsmayılova mətbuat konfransı keçirərək onun şantaj olunması ilə bağlı Bakı Şəhər Prokurorluğunun apardığı istintaqa münasibətini bildirib. X.İsmayılova istintaqdan narazı olduğunu deyib. Bildirib ki, intim video onun yaşadığı mənzildə çəkilib. O ehtimal edir ki, videoqurğu mənzilə telefon naqili ilə birləşdirilib. Bu naqili çəkən ATS-in montyoru ilə söhbət edib, prokurorluqdan montyorun dindirilməsini istəyib. Bununla bağlı özünün də əlavə ifadə vermək istədiyini deyib. Amma X.İsmayılovanın sözlərinə görə, istintaq bu məsələyə maraq göstərməyib.*

X.İsmayılova aprein 26-da Bakı Şəhər Prokurorluğunun bu işin istintaqı ilə bağlı yaydığı məlumatı tənqid edib. Xəbər verildiyi kimi, prokurorluq Xədicə İsmayılovanın dəfələrlə istintaqa ifadə verməkdən imtina etdiyini bəyan edir, bildirirdi ki, araşdırma məqsədi ilə X.İsmayılovanın ailə üzvləri, evdə təmizlik işləri aparan qadın və mənzilə müxtəlif məqsədlərlə gələn şəxslər dindirilib. Prokurorluq şahid qismində dindirilən bu şəxslərin adlarını, iş yerlərini və mənsub olduqları qurumları açıqlayıb. Prokurorluq həm də qeyd edirdi ki, istintaqı tənqid edən Xədicə İsmayılova ictimaiyyətdə yanlış təsəvvür yaratdığından belə bir məlumatla çıxış edir.

**İSTİNTAQA İFADƏ: MÜXTƏLİF VERSİYALAR**

Mətbuat konfransında çıxış edən Xədicə İsmayılova istintaqa ifadə verməkdən imtina etdiyi haqda prokurorluğun ittihamlarını rədd edib. Deyib ki, istintaqa bir dəfə dəvət olunublar. Onda da:

- İfadə verən dostlarım mənə dedilər ki, şəxsi həyatımla, vərdişlərimlə bağlı, məsələn, spirtli içkilərələ bağlı suallar verirlər. İstintaqla bağlı təəssüratım budur ki, Aqil Xəlilin işində olduğu kimi, mənim üçün də Sergey Strekalin olayı yaratmağa çalışırlar.

**ŞAHİDLƏRİN ADLARININ AÇIQLANMASI PİSLƏNİR**

Prokurorluğun şahidlərin adlarının açıqlanmasını da tənqid edən X.İsmayılova qeyd etdi ki, bu şəxslər haqda istintaqa məlumat verərkən bunların yayılmamasını, onların narahat olmamasını istəyib. İstintaq isə, onun sözlərinə görə, cinayətin üstünü açmaq əvəzinə, onu və dostlarını araşdırmaqla məşğuldur. Jurnalist onun dostları və yaxınları haqda məlumatların ictimaiyyətə açıqlanmasını pisləyib.

**VƏKİL PROKURORLUĞUN MƏHKƏMƏYƏ VERİLƏCƏYİNİ DEYİR**

Xədicə İsmayılovanın vəkili Adil İsmayılov da bunun qanunsuz olduğunu deyir. Bu günlərdə məhkəməyə müraciət edəcəklərini bildirir:

- Cinayət Məcəlləsinin 199-cu maddəsində deyilir ki, prosessual hərəkətlərin gedişində hər hansı şəxsin həyatına aid məlumatların, habelə onun gizli saxlanmasını lazım bildiyi şəxsi xarakterli məlumatların lüzumsuz toplanmasına, yayılmasına yol verilmir. İstintaqı həyata keçirən orqanın şəxsin həyatına aid məlumatların bildirilməsini, təqdim olunmasını məhkəmənin müvafiq qərarı əsasında təklif etdikdə, həmin şəxs də bu məlumatların cinayət işi üzrə toplanmasının zəruriliyinə əmin olmaq, əks halda onları verməkdən imtina etmək hüququna malikdir.




**Dəyərli oxucular!** AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını azadliqradiosu.az saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun


Hikmət Hacızadə: **«Erməni lobbisi üçün Morningstarı yıxmaq çətin olar»**


**Ukraynada terrorçuların kimliyini deyən 250 min dollar alacaq**


**Dünya üzrə ərzaq qiymətləri yeni rekorda yaxınlaşır**

## AzadlıqFM




Hər həftənin cümə axşamları saat 23-dən gecəyarısınadək AzadlıqRadiosunun yeni layihəsi Facebook məkanında baş verən maraqlı olayları diqqətinizə çatdırır, sosial şəbəkələrdəki yeniliklərlə sizi tanış edir, Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslərlə söhbətlər aparır. Bu yayım eyni vaxtda AzadlıqRadiosunun-Facebook Fane Pageində də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. AzadlıqFM-in arxiv səhifəsi də var.

# Ev-torpaq sənədləşməsində rüşvəti necə kəsərdin?



Şahin İsmayılov

*Bundan sonra Bakıda torpaq alıb ev tikmək istəyənlər əvvəlcə Dövlət Neft Şirkətinə müraciət edərək həmin torpağın şirkətin ərazisində olub-olmadığını öyrənməlidirlər. Amma hələlik bu, hökumətin qaydası deyil, Dövlət Neft Şirkətinin hüquq idarəsinin şöbə müdiri Şahin İsmayılovun tövsiyəsidir. O, AzadlıqRadiosunun "Korrupsiometr" proqramında müzakirələr zamanı deyib ki, Dövlət Neft Şirkəti hazırda öz ərazilərində yeni tikililərin yayılmasına imkan vermir. Amma çoxdan tikilmiş, içərisində insanlar yaşayan evlər qanunsuz olsa da, onlara toxunmurlar:*

- Neft Şirkətinin ərazisində çoxlu sayda qanunsuz tikililər var və bu torpaqların şirkətə məxsus olmasını sübut edən xəritələr mövcuddur.

Qanunsuz tikililərlə bağlı aparılan tədbirlərdən biri məhkəmələrə müraciətdir. Səbayel rayonu üzrə 2 000-dən çox, Binəqədi rayonu üzrə 3 300-dən artıq məhkəmə müraciətimiz var. Bəzi məhkəmə qərarları olsa da, şirkət içində yaşayış olan heç bir obyekti sökmür. Yeni tikilməkdə olan evlərin qarşısının alınması həyata keçirilir. Vətəndaşların çoxunun sənədi olmur. Kimin sənədi varsa, onu da bələdiyyələr Dövlət Neft Şirkətindən razılıq almadan veriblər. Həmin sənədləri vətəndaşa verirlər ki, burada yaşa, heç kim sök deməyəcək, Dövlət Neft Şirkəti onsuz da bunu sökmür, bu kimi fikirlərlə vətəndaşları aldadırlar. Bir neçə bələdiyyə sədri ilə bağlı cinayət işi hazırlanıb.

Proqramın digər qonağı hüquqşünas Müzəffər Baxışov da qeyd etdi ki, vətəndaşlar o evləri vəzifə daşıyan məmurların razılığı ilə tikirlər. O, qeyd edir ki, qanunsuz evlər məsələsində də ölkədə qanun eyni qaydada tətbiq edilmir:

- Xəzər dənizinin kənarında heç kimin ixtiyarı yoxdur ki, ev tiksin. Amma vəzifəli şəxslər orada böyük imarətlər tikiblər.

Mövcud qaydaya görə, əgər bu şəxs özbaşına ev tikibsə, bu məsələ məhkəmə qaydasında həll edilməlidir. Əgər vətəndaş ev tikib orada yaşamağa başlayıbsa, kommunikasiya xətləri çəkilibsə, artıq o həmin evə mülkiyyət hüququ əldə edir.

Proqrama telefonla qoşulan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədr müavini Dövlətxan Dövlətxanov özbaşına tikilmiş evlərin rəsmiləşdirilməsi ilə bağlı Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hazırlanan qanun layihəsinin artıq keçən ildən hazır olduğunu bildirir. O, qeyd edir ki, evlərin sənədləşdirilməsi üçün çox sadə mexanizm düşünmək istəyirlər ki, bu işi tez bir zamanda həll etsinlər. Müəyyən bir hədd qoymaq istəyirlər ki, hansı tarixə qədər tikilmiş evlərə aid ediləcək.

**Müzakirəni AzadliqRadiosu.az saytında dinləyə bilərsiniz.**
***Kamran Mahmudov, Gülər Qasımova***

# İntiqam Əliyev: "Hakimiyyət demokratiya istəyən qurumlara pis baxır"

*«Hakimiyyət anlayır ki, ölkədə müstəqil media olsa, seçkiləri saxtalaşdırmaq çox çətin olacaq». Bunu AzadlıqRadiosunun «İşdən sonra» proqramında hüquq müdafiəçisi İntiqam Əliyev Sərhədsiz Reportyorlar Təşkilatının illik mətbuat azadlığı indeksində Azərbaycanın 179 ölkə arasında 162-ci yeri tutmasını şərh edərkən deyib: «Müstəqil medianın olduğu ölkədə dövlət büdcəsini yeyib dağıtmaq mümkün olmayacaq. Öz azadlıqlarını reallaşdırmaq istəyən insanları məhkəmələrin əli ilə həbs etdirmək mümkün olmayacaq. Media cəmiyyəti çalxalayacaq və insanlar küçələrə töküləcək. Hal-hazırda televiziyalar hakimiyyətin nəzarəti altındadır. Bir-iki müstəqil sayıla biləcək qəzet var, onların da ictimai rəyə təsir etmək imkanı yoxdur. Bu situasiyada məlumatsız cəmiyyəti idarə etmək çox rahatdır».*

İ.Əliyev bildirir ki, hakimiyyət vaxtilə güclü medianın nə demək olduğunu görüb və buna görə də medianın güclü olmasında maraqlı deyil. O, hakimiyyətin bu tip təşkilatların hesabatlarından nəticə çıxaracağına inanmadığını deyir: «Hakimiyyət rəsmiləri hər zaman deyirlər ki, bu qurumlar düşmən qurumlardır və onların yazdıqları həqiqət deyil. Əlbəttə, hakimiyyət Azərbaycanda demokratiyanın, azad medianın, korrupsiyasız cəmiyyətin, güclü siyasi partiyaların və vətəndaş cəmiyyətinin olmasını istəmir. Bunu istəyən qurumlara isə münasibəti pis olmalıdır».


İntiqam Əliyev

İ.Əliyev bu tip hesabatların hansısa ölkənin deyil, sırf Azərbaycan cəmiyyətinin maraqlarına xidmət etdiyini bildirir.

**Müzakirəni AzadliqRadiosu.az saytında dinləyə bilərsiniz.**
***Kamran Mahmudov, Araz Bayramov***

# Azərbaycanla sərhəddə 3 erməni əsgəri öldürülüb

Ermənistan rəsmiləri bildirirlər ki, aprelin 27-də Azərbaycanla sərhəddə silahlıların hərbi maşına hücumu nəticəsində 3 əsgər həlak olub. Ermənistan prezidenti Serj Sarkisyan atəşin Azərbaycan tərəfdən açıldığını deyərək cavab addımları ilə hədələyib. Ermənilər qeyd edirlər ki, iki gün əvvəl də bu hadisənin baş verdiyi ərazini Azərbaycan atəşə tutmuşdu. Azərbaycanla Ermənistan tez-tez bir-birini atəşkəsi pozmaqda ittiham edirlər. Bu günlər atəşkəsin pozulması nəticəsində Azərbaycan ordusunun bir zabiti də həlak olub.



İlham Əliyev

# Prezident Bakıda bulvarın təmirinə daha 5 milyon manat verdi

Prezident İlham Əliyev aprelin 27-də Bakı şəhərində Dənizkənarı Bulvarın genişləndirilməsi ilə bağlı əlavə işlərə 5 milyon manat ayrılması barədə sərəncam verib. Sənədə görə həmin pul 2012-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan veriləcək. Bakıda bulvarın təmirinə son illər külli miqdarda pul ayrılıb. Tənqidçilər bulvarda üzlük daşların lazımsız yerə tez-tez dəyişdirilməsindən şikayət edirlər. Amma bulvar idarəsi bu ittihamları rədd edir.



Ziya Məmmədov

# Ziya Məmmədova «Şöhrət» ordeni verildi

Azərbaycan prezidenti İlham Əliyev nəqliyyat naziri Ziya Məmmədovu «Şöhrət» ordeni ilə təltif edib. Ziya Məmmədov bu mükafata Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə layiq görülüb.

***Məlumatı AzərTAc yayıb.***

# Məktəbdə restoran

**Şəkidən Rahib Nəsirov AzadlıqRadiosunun «Qaynar Xətt»inə şikayət edib ki, şəhərdəki Mirzə Fətəli Axundzadə prospektində yerləşən və azyaşlı qızının da dərs aldığı şahmat məktəbinin birinci mərtəbəsində bir sahibkar restoran açıb. Bu da həmin məktəbdə şahmat dərsi alan azyaşlılara mənfi təsir göstərir. Rahib Nəsirov təhsil ocağında restoranın fəaliyyət göstərməsinin əleyhinədir:**

«Məktəbin 1-ci mərtəbəsi «Ovçular məkanı» restoranıdır. 7 aydır yazmadığım dövlət orqanı qalmayıb. Belə biabırçılıq olmaz, bir adamın öhdəsindən gələ bilmirlər. Mən 1 ildir 6 yaşlı uşağı şahmat məktəbinə göndərmirəm».

**«RESTORAN SAHİBİNDƏN RÜŞVƏT ALIB, DEYİR NƏ İSTƏYİRSƏN ELƏ»**

Restoran fəaliyyətə başlayanda valideynlər etiraz etsələr də, məhəl qoyulmayıb. Rahib Nəsirli: «Nazirlər Kabinetinin qərarı var ki, restoran məktəbdən 25 metr aralıda olmalıdır. Məhəllə adamları həmin şahmat məktəbinin qarşısında oturacaq qoymuşdular, məktəbin direktoru oturacağı yığışdırdı ki, burda məktəb yerləşir, olmaz. Ancaq içərisində sulu qəlyan, pivə satılan restorana göz yumur. Bunun da səbəbi var. Restoran sahibindən rüşvət alıb, deyir nə istəyirsən elə».

Rahib Nəsirli restoranın fəaliyyətinin dayandırılması üçün müxtəlif hüquq-mühafizə orqanlarına, həmçinin məhkəməyə də şikayət edib.

**MƏHKƏMƏ İDDİANI TƏMİN ETMƏYİB**

«Ovçular məkanı» restoranının sahibi Qoşqar Əliyevin nümayəndəsi Eldar Mustafayev məhkəmədə deyib ki, Qoşqar Əliyev ailəsini dolandırmaq üçün binanın birinci mərtəbəsində ofis, mağaza və kafe üçün qanuni şəkildə yer alıb. Restoranın fəaliyyətində heç bir qanunsuzluq yoxdur. Əksinə, Rahib Nəsirov ora-bura əsassız şikayətlər etməklə onun sahibkarlıq fəaliyyətinə əngəllər yaradır. Nümayəndə məhkəmədən iddianın təmin olunmamasını xahiş edib.



Arxiv foto

Məhkəmə qətnamə çıxarıb ki, restoranın fəaliyyəti ilə bağlı aparılmış araşdırmalar nəticəsində Rahib Nəsirovun şikayəti sübuta yetirilməyib. Buna görə də məhkəmə onun iddiasını təmin etməyib. R.Nəsirovun məhkəmə qətnaməsindən Şəki Apelyasiya Məhkəməsinə etdiyi şikayət də təmin olunmayıb. R.Nəsirov məhkəmə qərarları ilə razılaşmır, Ali Məhkəməyə müraciət edəcəyini bildirir.

**RESTORAN MƏKTƏBƏ KÖMƏK EDİR**

Rahib Nəsirov Şəki Şahmat Məktəbinin direktoru Vüqar Salamovun da sahibkara dəstək verdiyini iddia edir. O, məktəb direktorunun sahibkardan rüşvət aldığını, buna görə də onun fəaliyyətinə qarşı çıxmadığını deyir. Məktəb direktoru isə iddiaları əsassız sayır: «Şahmat məktəbi 1982-ci ildən həmin binanın 2-ci mərtəbəsində yerləşir. Biz burda icarədəyik. 1-ci mərtəbənin xüsusi mülkiyyətçisi Qoşqardır. Bizim aramızda heç bir problem, iddia yoxdur. Əksinə, onlar fəaliyyətə başlayandan sonra binanın həyətinin abadlaşdırılmasında, məktəblilərin bir sıra tədbirlərinin keçirilməsində yaxından iştirak ediblər. Binanın damını təmir ediblər».

Məktəb direktoru deyir ki, məktəbi yerli təhsil şöbəsi maliyyələşdirir. Yaxın vaxtlarda məktəb binasının tikilməsi də planlaşdırılıb.

***Esmira Cavadova***




Azərbaycanın bölgələrində baş verənlər haqda həftəlik proqram. **AzadlıqRadiosu** bölgə müxbirlərinin hazırladığı reportajlarda əyalətlərin nəbzini hiss etmək üçün hər həftənin bazar ertəsi **saat 20.35**-də efirə qoşulun. Verilişin təkrarı həftəboyu **AzadlıqRadiosu**nun efirində səslənir.

# İlham Əliyev «Azadlıq» qəzetini məhkəməyə verə bilər


Azər Qasımov

AZƏR QASIMOV: **«ORDA HƏR ŞEY AYDINCA YAZILIB»**

«Azadlıq» qəzeti ölkə prezidentinin 800.000 dollarlıq qol saatı taxması ilə bağlı məlumata təkzib vermədi. Qəzet, sadəcə, izahat verdi: «Prezidentin mətbuat xidmətinin təkzib etdiyi məlumatın mənbəyi redaksiya deyil. Məlumat blogger Vəfa Cəfərovanın bloqundan götürülüb». Qəzet həmçinin bildirdi ki, bu məlumatın dərcində heç bir qərəz güdməyib, yalnız onun maraqlılıq dərəcəsini nəzərə alıb. Bəs bu izahat Prezident Administrasiyasını qane edirmi? Yoxsa bəyan etdiyi kimi, məhkəməyə müraciət edəcək? Prezidentin mətbuat katibi Azər Qasımov:

- Mətbuat xidmətinin məlumatında tələblərimiz göstərilmişdi, onlar irəli sürülüb. Əlavə şərhə ehtiyac yoxdur.

*- Yəni izahat yetərli deyil? Məhkəməyə müraciət edəcəksiz?*

- Şərhə ehtiyac yoxdur. Dünən (aprelin 24-də - Ş.B.) biz tələblərimizi demişik. Orda hər şey aydınca ifadə olunub.

*- Bu o deməkdirmi ki, qəzetlə məhkəmədə görüşəcəksiz?*

- Şərhə ehtiyac yoxdur.

*- Qəzet mətbuat xidmətiylə əlaqə yaratmağa cəhd etdiyini də bildirir...*

- Xeyr, belə şey olmayıb. Kim zəng edirsə, həmişə cavab vermişəm. Bir adam onu deyirsə, səhv deyir...

**«MEDİAFORUM» A VERİLƏN FƏRQLİ CAVAB**

Azər Qasımov AzadlıqRadiosunun sualını cavablandırmazdan az əvvəl isə «Mediaforum» saytına demişdi: «Bir neçə gün gözləyək, görək hadisələr necə inkişaf edəcək. Prosesi izləyəcəyik. Hər şey prosesin gedişindən asılı olacaq. Yalnız bundan sonra mövqeyimizi bildirəcəyik».

Prezidentin mətbuat xidmətinin aprelin 24-də yaydığı məlumatdasa deyilirdi ki, qəzet 3 günə təkzib verməklə üzr istəməzsə, məsələnin hüquqi müstəvidə həlli ilə bağlı məhkəməyə müraciət ediləcək.

RAHİM HACILI: **«QƏBUL EDİB-ETMƏMƏK ONLARIN ÖZ İŞİDİR»**

«Azadlıq» qəzetinin redaktoru Rahim Hacılı deyir ki, onlar öz mövqelərini artıq bildiriblər: «Qəbul edib-etməmək onların öz işidir». Redaktor 2 variantın heç birini istisna etmir. O, qəzetin məhkəməyə veriləcəyini də, izahatlarının kafi sayılmasını da mümkün sayır. Bəs prezident qəzetin izahatını qəbul etməsə, məhkəməyə baş vurarsa, «Azadlıq»ı hansı aqibət gözləyir?

**«YALNIZ KOMPENSASİYA!»**

Hüquqşünas Ələsgər Məmmədli deyir ki, qəzet təkzib versə də, verməsə də, qarşı tərəf ona mülki iddia qaldıra bilər. Çünki ortada cinayət və ya təhqiramiz ifadə yoxdur. Söhbət, sadəcə, yalan informasiyanın yayılmasından gedir: «Zərər dəydiyini iddia edən tərəf həmin qəzetə qarşı mülki iddia qaldıra bilər. Ona maddi və ya mənəvi ziyan dəyibsə, kompensasiya tələb edə bilər. Hər hansı cinayət məsuliyyətindən söhbət gedə bilməz.

Burda diffamasiya yoxdur. Cinayət hüququ baxımından 147 və 148-ci maddələri tətbiq etmək mümkün deyil. Sadəcə, doğru olmayan informasiyanın şəxsin nüfuzuna zərər vurub-vurmaması məsələsi dartışıla bilər. Prezidentin şərəf və ləyaqətinin nalayiq formada, qəsdən təhqir olunmasından söhbət getsəydi, o zaman Cinayət Məcəlləsinin 323-cü maddəsi işləyərdi. Amma burda elə bir şey yoxdur».

**NİYƏ «VAŞİNQTON POST» YOX, «AZADLIQ»?**

«Azadlıq» qəzetinin redaktoru Rahim Hacılı diqqəti ona yönəldir ki, prezidentin özü və ailəsinin biznesi və ya davranışları haqda beynəlxalq mətbuat həmişə yazıb. Amma nədənsə prezident «Azadlıq» qəzetini məhkəməyə verir.

***Şahnaz Bəylərqızı***

# Əli Həsənov: «Yazmalıdırlar ki, İlham Əliyevdən üzr istəyirik»

«Hesab etmirəm ki, «Azadlıq» qəzeti prezident İlham Əliyevin qol saatı haqda yaydığı yalan informasiyaya görə təkzib verib, üzr istəyib». Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənov aprelin 27-də «Mediaforum» saytına açıqlamasında belə deyib. Ə.Həsənov bildirib ki, «Azadlıq»ın yaydığı və qəzetin özündə də dərc olunan açıqlamanı təkzib və üzrxahlıq saymırlar. «Azadlıq» qəzeti «Kütləvi informasiya vasitələri haqqında» qanuna əməl etmir: « Yazmalıdırlar ki, «Azadlıq» qəzetinin filan sayında prezident İlham Əliyevin qol saatı haqda dərc etdiyimiz informasiya həqiqətə uyğun deyil, məlumatı təkzib edirik və prezident İlham Əliyevdən üzr istəyirik. Əks halda qəzetin bu yalan informasiyaya görə hüquqi müstəvidə cavab verəcəyi qaçılmazdır. Biz gözləyirik».

**«AZADLIQ» QƏZETİNİN AÇIQLAMASI**

«Azadlıq» qəzeti prezidentin mətbuat xidmətinə müraciət edir ki, ölkə başçısının istifadə etdiyi qol saatının qiyməti və markası haqda məlumatı açıqlasın. Qəzet bu məlumatı dərc etməyə və ölkə başçısının qol saatı haqda rəsmi məlumatla özünün yaydığı



Əli Həsənov

məlumat arasında uyğunsuzluq olarsa, buna görə üzr istəməyə hazırdır: «Açıqlamada prezidentin hansı markalı qol saatından istifadə etdiyi, onun hansı qiymətə olduğu haqda məlumatlar olmayıb. Bu isə «Azadlıq» qəzetinə tirajladığı məlumatın həqiqətən də yalan olduğunu aydınlaşdırmağa imkan vermir».

# Обама хочет назначить Морнингстара послом в Баку



Спецпредставитель Госсекретаря США Ричард Морнингстар на пресс-конференции в Баку, 2 июня 2010

Президент Барак Обама заявил о своем намерении назначить Ричарда Л.Морнингстара послом США в Азербайджане

Об этом говорится в сообщении, распространенном пресс-службой Белого дома 26 апреля. Профессиональный дипломат, 67-летний Ричард Л.Морнингстар в настоящее время занимает пост специального представителя Государственного секретаря по вопросам энергетики в Евразии.

Для того, чтобы Ричард Л.Морнингстар стал послом, его кандидатура должна быть утверждена Сенатом США.

Предыдущая кандидатура Обамы - Мэтью Брайза смог проработать на должности посла в Азербайджане всего год, потому что Сенат не утвердил его. Брайза не был утвержден из-за давления армянского лобби, которое считало его проазербайджански настроенным политиком.

# Женский футбол в Азербайджане

*«Верю, что я и мои друзья по команде дадим импульс для того, чтобы многие сотни девочек пошли в футбол». Это говорит член женской сборной Азербайджана по футболу среди 17-летних Амина Гейдарова. Амина тренируется днем и ночью. Она говорит, что футбол многие считают мужским видом спорта, но она и ее друзья по команде развенчали это мнение. Шутка ли, Амина будет играть на чемпионате мира. Чемпионат мира среди женщин FİFA U-17 стартует 22 сентября на стадионе имени Тофика Бахрамова в Баку.*

Женская сборная Азербайджана сформирована около двух лет назад. Главный тренер сборной Сиси Райт говорит, что идет напряженная подготовка к мировому чемпионату. «Команда значительно развилась. Поначалу это было не так. Раньше даже передачи не получались толком. А теперь есть существенные подвижки».

**ВЕРИМ В ПОБЕДУ**

В этом году в чемпионате мира будет участвовать 16 команд. Десять из них – Бразилия, Уругвай, Колумбия, Гамбия, Нигерия, Гана, Китай, Северная Корея, Япония и Новая Зеландия уже подтвердили свое участие».

Вратарь азербайджанской сборной Гюнай Исмайылова говорит, что опыт у команды невелик, но девушки уверены в том, что покажут хорошую игру. «Мы уверены, что победим своих соперниц на чемпионате мира».

Футболистка Жаля Мамедова тоже верит, что напряженные тренировки не останутся безрезультатными: «Готовимся основательно, идут тренировки. Всегда были первыми, первыми и будем».

**КАК СОЗДАВАЛАСЬ КОМАНДА**

А футбольный обозреватель Джошгун Эльдароглу говорит о развитии женского футбола с определенными сомнениями. Он считает, если команды создаются административным путем, трудно говорить о развитии: «Вначале надо проводить чемпионаты страны, а уже после можно говорить о сборных. В Азербайджане нет чемпионата страны, нет клубов. Если нет футбольных команд, о какой национальной команде можно говорить?»

**ИГРА НАЧИНАЯ С НУЛЯ**

А руководитель пресс-службы AFFA Микаил Нариманоглу говорит, что они начинали с нуля: «У нас не было женского футбола. Не было команд в старших возрастных группах. Потому мы начали с 17-летних, что за да года можно подготовить команду, и уже готовим».

Генеральный секретарь AFFA Эльхан Мамедов говорит, проводимый чемпионат станет большим испытанием для Азербайджана.

***Кябиран Диляверли***



Саакашвили отвечает на реплику Медведева, Рустави, 26 апреля 2012

# Саакашвили озвучил условие своей отставки

*Президент Грузии Михеил Саакашвили, в ответ на высказывания своего российского коллеги Дмитрия Медведева, заявил, что готов немедленно подать в отставку, если Россия признает самопровозглашенные республики Абхазия и Южная Осетия частью грузинской территории. Медведев в интервью российским телеканалам назвал Саакашвили "пустым местом", но, в то же время, выразил надежду на то, что после смены власти в Грузии две страны смогут восстановить отношения.*

Президент Саакашвили ответил президенту России в ходе испытания нового автодрома в городе Рустави. По его словам, российское руководство раздражено тем, что после 2008 года Грузия "восстала из пепла" и стала примером успешных реформ, в том числе для России.

Саакашвили убеждён, что Россия хочет привести к власти в Грузии тех политиков, кто прямо или косвенно признает законным оккупацию грузинских территорий. Кроме того, он выступил с конкретным предложением по налаживанию отношений с Россией: "Если они готовы вернуть Грузии Абхазию и Южную Осетию, я готов немедленно вылететь в любую точку, встретиться с Медведевым, либо истинным руководителем России и подписать договор о том, что ухожу в отставку в обмен на вывод российских войск и возвращение Грузии оккупированных территорий".

При этом президент Грузии был одет в форму автогонщика и буквально излучал оптимизм.

***Георгий Кобаладзе***

# Xarici diplomatlar müxalifət liderləri ilə görüşdü

*Aprelin 24-ü saat 15 radələrində Müsavat Partiyasının qərargahında Azərbaycandakı diplomatik korpusun nümayəndələri ilə İctimai Palatanın Koordinasiya Şurasının qapalı görüşü keçirilib. Avropa Şurasının Bakı ofisinin rəhbəri və Almaniyanın Azərbaycandakı səfiri də daxil olmaqla, toplantıda ATƏT-in Bakı nümayəndəliyi, ABŞ, Böyük Britaniya, İtaliya, Norveç və s. ölkələrdən 20-yə yaxın diplomat iştirak edib.*

Müsavat başqanının müavini Gülağa Aslanlı deyir ki, məqsəd Azərbaycandakı ictimai-siyasi durumu müzakirə etməkdir: «Bu, əslində ənənəvi görüşlərin davamıdır. Keçən il mitinqlərdən sonra 2 dəfə belə görüş olub. Qərara gəlinib ki, bu görüşlər davam etdirilsin. Hətta diplomatik korpusun nümayəndələri ilə belə bir razılaşma var idi ki, iki aydan bir toplaşsınlar. Bu il ilk toplantıdır və yenə də ölkədəki vəziyyət, demokratiyanın durumu, həbsdə olan siyasi məhbusların azad edilməsi üçün hansı addımların atılması kimi məsələlər müzakirə mövzusudur».



İsa Qəmbər

Xarici diplomatlarla İctimai Palata nümayəndələrinin görüşü 2 saata yaxın davam edib. Xarici diplomatlar müzakirələr barədə məlumat verməkdən imtina ediblər. Müsavat başqanı İsa Qəmbər isə deyib ki, görüşdə ölkədəki ictimai-siyasi vəziyyət, Avropa ilə Azərbaycan arasında münasibətlər və s. məsələlər müzakirə olunub: «Hesab edirəm ki, çox faydalı və maraqlı fikir mübadiləsi oldu. Vicdan məhbuslarından tutmuş, təzyiqlərə məruz qalan jurnalistlər, həbs edilən QHT nümayəndələrinə, yəni Oqtay Gülalıyev və İdrak Abbasova qədər bütün məsələlər müzakirə edildi».

2011-ci ildə bu formatda keçirilən ilk görüşdən sonra Əli Əhmədov, Siyavuş Novruzov və YAP-dan olan digər deputatlar Bakıdakı səfirliklərin bu addımını tənqid etmişdilər.

**YAP GÖRÜŞƏ MÜNASİBƏT BİLDİRDİ**



Siyavuş Novruzov

«Səfirlərin, səfirlik nümayəndələrinin hər hansı partiyanın, ictimai təşkilatların nümayəndələri ilə görüşməsini normal hesab edirəm». Bunu APA-ya açıqlamasında hakim Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, deputat Siyavuş Novruzov deyib. O, xarici diplomatların müxalifət partiyaları ilə görüşünə təbii baxdığını bildirib: «Çünki ölkəmizdə akkreditasiyadan keçiblərsə, Azərbaycanın bölgələrində də görüşlər keçirə, ayrı-ayrı təbəqələrin nümayəndələri ilə də görüşə bilərlər. Bu, onların iş rejimidir, iş prosesidir. Təəssüf doğuran hal odur ki, müəyyən ölkələrin səfirlikləri neçə illərdir ölkəmizdə akkreditasiyadan keçmələrinə baxmayaraq, bu günə qədər Azərbaycan köçkünləri, şəhid ailələri, Ermənistandan didərgin düşmüş 200 mindən artıq azərbaycanlı ilə, genosidə məruz qalmış Xocalı sakinləri ilə görüş keçirməyiblər».

***Maarif Çingizoğlu***



Almaniya bayrağı

# Almaniya səfirliyi «Yeni Azərbaycan»a cavab verdi

**Almaniyanın Azərbaycandakı səfirliyi hakim Yeni Azərbaycan Partiyasının orqanı olan «Yeni Azərbaycan» qəzetinin 18 aprel tarixli sayında dərc olunan yazıya münasibət bildirib. Səfirlik təəssüflə bildirir ki, «Yeni Azərbaycan» qəzeti səfirin 15 mart 2012-ci il tarixli məqaləsində toxunduğu mövzulara dair müzakirələr aparmaq dəvətini qəbul etməyib. Açıqlamada qeyd olunur ki, bunun əvəzində «Yeni Azərbaycan» qəzeti alman siyasi fondlarına qarşı ittihamlar irəli sürməklə qeyri-əminlik və təhlükə iqlimi yaradır. Bununla da açıq müzakirə mədəniyyətinə xələl gətirir.**

«Azərbaycanda Almaniyanın yaxşı imicini mətbuat orqanları, televiziya və radio vasitəsilə yayımlanan qaba mənfi fikirlər ilə korlamaq cəhdləri azərbaycanlıların intellekti qarşısında acizdir», - deyə aprelin 26-da yayılan məlumatda bildirilir. Daha sonra həmin açıqlamaya səfir Herbert Quelle'nin martın 15-də yazdığı məqalə əlavə edilib. Son aylar «Yeni Azərbaycan» qəzeti Almaniyanı dövlət səviyyəsində Azərbaycana qarşı kampaniya aparmaqda təqsirləndirən məqalələr çap edir.

# İctimai Palata 6 may mitinqinə hazırlaşır

**İctimai Palata (İP) mayın 6-da yürüş-mitinq keçirməkdə israrlıdır. Bu barədə qərar aprelin 27-də İP-nin Koordinasiya Şurasının toplantısında qəbul edilib. Bunu AzadlıqRadiosuna Koordinasiya Şurasının üzvü Rafiq Manaflı deyib. İP aksiyanı 3 ünvandan birində - metronun «Dərnəgül» stansiyası çıxışında, «Təbriz» kinoteatrının qarşısındakı meydanda və ya «Nərimanov» parkında keçirmək istəyir:**

«Bizə mitinqi yenə ötəndəfəki ünvanda - sürücülük məktəbinin həyətindəki meydanda keçirmək təklif olunsa, bunu müzakirə edəcəyik». İctimai Palata Bakı Şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış əvvəlki 2 aksiyanı Bibiheybət qəsəbəsi, 20-ci sahə, sürücülük məktəbinin həyətindəki meydanda keçirib.

# Damı şiferdən olan evlər niyə siyahıya alınır?


Şifer

**Bakı və bölgələrdə asbest şiferli evlərin örtüyünü dəyişdirmək üçün həmin evlərin siyahıya alınması başlanıb. Bu işin Nazirlər Kabinetinin sərəncamı ilə həyata keçirildiyi bildirilir. «Azər Abdullayev məni çağırıb dedi ki, məhəllənin ağsaqqalı kimi asbest şiferli evlərin sayını, eni-uzununu siyahıya al, gətir. Mən də 3 gün ərzində 50-60 evin siyahısını hazırlayıb, verdim ona».**

Astara şəhər sakini Hüseyn Əbilovun dediyinə görə, 10 gün əvvəl Astara Rayon İcra Hakimiyyəti başçısının şəhər üzrə nümayəndəsi Azər Abdullayev ona tapşırıq verəndə deyib ki, bu, asbest dam örtüklərinin dəyişdirilməsi ilə bağlıdır.

### NAZİRLƏR KABİNETİNDƏN İCRA HAKİMİYYƏTLƏRİNƏ GEDƏN MƏKTUB

Lənkəran Şəhər İcra Hakimiyyətinin şəhər təsərrüfatı üzvə müavini Möhübbət Babayev AzadlıqRadiosuna deyib ki, onlar Nazirlər Kabinetindən baş nazirin müavini Abid Şərifovun imzası ilə asbest şiferlərin zərərli olması barədə məktub alıblar: «Nazirlər Kabinetindən bizə asbest şiferlərin zərərli xüsusiyyətləri barədə məktub gəlib. Biz də bununla bağlı sənəd hazırlayıb bütün qurumlara göndərmişik ki, vətəndaşlar bu işlərin getməsindən xəbərdar olsunlar. Biz də Lənkəranda asbest dam örtüklərinin ölçüsünü müəyyən etmişik. Bu, 7 min kvadratmetrə yaxındır».

### TƏZƏ EV TİKƏNLƏRƏ ŞİFER XƏBƏRDARLIĞI

Möhübbət Babayev deyir ki, yeni ev tikənlərə və tikinti təşkilatlarına da xəbərdarlıq edilib - asbest dam örtüklərindən istifadə etməsinlər. Amma hələ ki, dam örtüklərinin dəyişdirilməsinə başlanılmayıb. Göyçay Rayon İcra Hakimiyyəti başçısının sosial-iqtisadi məsələlər üzrə müavini Ədalət Dövlətov da Nazirlər Kabinetindən məktub aldıqlarını təsdiqləyir. Deyir, hələ ki, hər hansı dəyişdirilmədən söhbət getmir, sadəcə, rayondakı asbest dam örtükləri, içməli su xətlərində istifadə olunan asbest borular siyahıya alınır.

Artıq rayon icra hakimiyyəti siyahıyaalmanı başa çatdırıb və sənədləri Nazirlər Kabinetinə təqdim edib.

Araşdırmalardan bəlli olub ki, rayonda 1 milyon 13 min kvadratmetr asbest dam örtüyü var.

Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri Akif Əli isə AzadlıqRadiosuna onlarda belə bir məlumatın olmadığını deyib.

### «BU, GÜNDƏMDƏ OLAN CİDDİ BİR MƏSƏLƏDİR»

Milli Elmlər Akademiyası Radiasiya Problemləri İnstitutunun direktoru Adil Qəribov Azərbaycanın bu məsələni özbaşına qaldırmadığını deyir. Bildirir ki, Ümumdünya Səhiyyə Təşkilatının və Beynəlxalq Əmək Təşkilatının 162 saylı qərarı var və həmin qərarla asbest tikinti materiallarının istifadəsi qadağan olunub: «Avropa Birliyi ölkələrində bunun istifadəsi, tətbiqi qadağan olunub. Yəni bu, Azərbaycanlıq məsələ deyil».



Radiasiya fonu normasındadır

Adil Qəribov bu məsələnin Avropa ölkələrində 5-6 il əvvəl, Azərbaycanda isə 2 il əvvəl başlandığını deyir. İnstitut direktoru deyir ki, asbest dam örtükləri eroziyaya məruz qaldıqca, onların üzərindən insan sağlamlığına ciddi zərər vura biləcək asbest liflər havaya qalxır. O, havaya qalxan liflərin ağciyər xərçəngi yaratmaq təhlükəsinin olduğunu deyir.

Amma asbest dam örtüklərinin həm kimyəvi, həm də radioloji analizini aparan Geologiya İnstitutu bu fikirləri bölüşmür. İnstitutun kimyəvi laboratoriyasının müdiri Nazim Sadıqov deyir ki, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi onlara Azərbaycanda istehsal olunan asbest dam örtükləri ilə bağlı iki nümunə verib. Hər iki nümunənin tərkibinin vulkan külündən ibarət – yəni zərərsiz olduğu aydınlaşıb.

### «BİZ AZƏRBAYCANDA BELƏ BİR HALA TƏSADÜF ETMƏMİŞİK»


İndiyə qədər asbest dam örtükləri ilə bağlı hər hansı radioaktiv şüalanma qeydə alınmayıb

Geologiya İnstitutunun radiometriya laboratoriyasının müdiri Çingiz Əliyev də deyir ki, indiyə qədər asbest dam örtükləri ilə bağlı hər hansı radioaktiv şüalanma qeydə alınmayıb: «Amma belə tədqiqatlar var ki, guya asbest insan orqanizmi üçün zərərli olan müəyyən hissəciklər buraxır. Konkret olaraq Azərbaycanda belə bir hala təsadüf etməmişik və bu sahələrdə də radiasiya fonu normasındadır. Biz bu barədə tibb işçiləri ilə də söhbətlər aparmışıq, onlar da bu halları təsdiqləmirlər».

### «BU İŞİN ARXASINDA HANSISA MƏKRLİ OYUNBAZLIQ VAR»

Bakı Şifer və Keramika Zavodunun satış meneceri Rafiq Mirzəyev isə ANS-ə verdiyi müsahibəsində asbest şiferlərin radioaktivliyi barədə yayılan məlumatların arxasında məkrli bir oyunbazlığın durduğunu deyib.

### YENƏ MƏMUR-OLİQARX MƏSƏLƏSİ

İqtisadçı Natiq Cəfərli düşünür ki, arxasında oliqarx məmurların dayandığı zavodların istehsal etdiyi şifer və plastik borular xarici bazarda özünə alıcı tapa bilmədiyindən, həmin şəxslər belə bir addım atırlar: «Onlar özləri istədikləri kimi tender keçirib, istədikləri qiymətə sənədləşdirməklə dam örtüklərini, su və kanalizasiya kəmərlərini dəyişəcəklər».

Natiq Cəfərli bu işlərə ən azı 2 milyard manat büdcə vəsaiti sərf olunacağını deyir.

***Maarif Çingizoğlu***

# «Qaynar Xətt»də nəyi soruşurlar?

**AzadlıqRadiosunun** efirində hər şənbə **saat 18-də «Qaynar Xətt»** verilişi başlayır. Burada sizin suallara hüquqşünaslar cavab verir. **21 aprel 2012-ci il** verilişində səslənən sualların bəzilərini və onların cavablarını sizə təqdim edirik. Sualları hüquqşünaslar **Şəfa Camalzadə və Sevinc Əliyeva** cavablandırıb.




### Zabit əsgəri döyərsə...

<u>Sübhan Hüseynli:</u> *Mən hərbi xidmətdə olanda hüquqlarım pozularsa, kimə və necə müraciət edə bilərəm? Rütbəsi olan işçilər əsgəri söyə və döyə bilər. Əgər mən qayıdıb ona cavab versəm, məni həbs cəzası gözləyirmi? Bir də bilmək istərdim ki, neçə gün ərzində hara təyin olunmağım barədə məlumat verilməlidir?*

<u>Cavab:</u> Əgər sizə söyüş söyürlərsə, yaxud ağır zorakılıqla bağlı olmayan başqa hərəkət edirlərsə, orda inzibati tribunal var, həmin o zabitdən daha yuxarı bir zabit var. Ona müraciət edə, problemi deyə bilərsiniz. Ancaq əsgər döyülübsə, gərək cavab qaytarmasın. Əgər üzərində hər hansı xəsarət varsa, mütləq tibbi hissədə müayinədən keçsin, qeydiyyata alınsın ki, bu əsgərə qarşı belə bir zorakılıq tətbiq olunub, həm prokurorluğa, həm Müdafiə Nazirliyinə məlumat versin. Ancaq özü zabitə cavab qaytarsa, bundan özünə qarşı istifadə oluna bilər. Sualın ikinci tərəfinə - neçə gün ərzində hara düşməyə gəlincə, bu, daxili təlimatla olur. Ona görə də cavab vermək çətindir.

### Həm Almaniya, həm Azərbaycan vətəndaşı ola bilərəmmi?

<u>Gəncədən Zahid Ələkbərov:</u> *Mən Almaniyaya köçürəm. Almaniya vətəndaşı olsam, mən həm də Azərbaycan vətəndaşı kimi qala bilərəmmi? Başqa ölkəyə köçmüş azərbaycanlıların hansı hüquq - ları var?*

<u>Cavab:</u> Vətəndaşlıq, ümumiyyətlə, siyasi hüquqlara aid olduğu üçün, Azərbaycan Respublikasının Konstitusiya - sına görə, vətəndaşlıqdan çıxarılmaya yol verilmir və şəxs Almaniya vətəndaşı ola bilər. Yəni Almaniya vətəndaşı ola-ola eyni zamanda Azərbaycandakı vətəndaş statusunu itirməyə bilər. Əgər özü Azərbaycan hökumətinə elə bir ərizə ilə müraciət etməyibsə. Əgər siz həm də Azərbaycan vətəndaşı olaraq qalırsınızsa, bu sizi Azərbaycan dövləti qarşısında olan vəzifələrin heç birindən azad etmir. Hər iki dövlətin vətəndaşı kimi qala, hər iki dövlət qarşısında öhdəlikləri yerinə yetirə bilərsiniz.

### Bakı qeydiyyatı məcburidir?

<u>Bakıdan Ülkər:</u> *Mən rayonda qeydiyyatdayam. Bu yaxınlarda işə düzəlmişəm. Dövlət işidir. İşə başlamaq üçün Bakıya qeydiyyata keçməyim tələb olunur. Bu, düzgündürmü?*

<u>Cavab:</u> İşə düzəlmək üçün bu, tələb olunmamalıdır. Əgər vətəndaş işə gəlib gedə bilirsə, əmək qabiliyyətlidirsə, onun harada qeydiyyatda olması önəmli deyil və qanunla bunu tələb etmək də yolverilməzdir.

### Soyadın dəyişdirilməsi

<u>Sumqayıtdan Fərəh:</u> *Mən familiyamı dəyişmək istəyirəm. Atam doğulanda onun familiyasını səhv yazıblar və biz də o familiya ilə gedirik. Əslində familiyamız ayrıdır. Mən o ata-baba familiyama necə qayıda bilərəm?*

<u>Cavab:</u> ZAQS-a müraciət edin. ZAQS familiyanı dəyişməkdən imtina edə bilər. Belə olan halda məhkəməyə müraciət edilməlidir. Məhkəmə isə mötəbər sübutlar yox, hansısa şahid ifadəsi tələb edir. Minimum əsaslandırması olsa məhkəmə qətnaməsi ilə familiyanın dəyişdirilməsinə nail oluna bilər.

### Vərəsənin vaxtı keçəndə

<u>Göyçaydan Seymur:</u> *Atamın dayısı rəhmətə gedəndə öz evini ona vəsiyyət edib. 20 il keçib. İndi evi öz adımıza keçirmək istəyirik. Bunu necə edə bilərik? Vəsiyyətdə yalnız ev qeyd edilib. Bu o deməkdir ki, evin həyətyanı sahəsi bizə düşmür?*

<u>Cavab:</u> Sizin atanız əsas vərəsədir. Baxmayaraq ki, onun da ölümündən 20 il keçib, əgər sizin atanız öz atasından qalmış əmlakı o vaxt 3 ay ərzində faktiki olaraq qəbul edibsə, yəni ona sahiblik edib, yiyə çıxıb, vərəsəsi olduğunu göstəribsə, yaxud da ikinci forma, yəni bu barədə notariusa müraciət edibsə, bir sözlə, vərəsə olduğunu isbatlayıbsa, o miras qəbul edilmiş hesab edilir, siz öz atanızın varisi kimi çıxış edərək notariusda şəhadətnamə ala bilərsiniz. Əgər müraciət üçün qanunla müəyyən edilmiş müddəti ötürmüsünüzsə və notarius bunu etmirsə, vərəsə kimi tanınmaq iddiası ilə məhkəməyə müraciət edə bilərsiniz.

### Yenə neft şirkəti, yenə torpaq...

<u>Bakıdan Bağırova Ella:</u> *Mənim Suraxanı rayonu Zığ qəsəbəsində iki sot torpağım var. Torpağı 2003-cü ildə başqa bir şəxsdən almışam. Torpaq komitəsindən şəhadətnamə də verilib. Qanuni olaraq Suraxanı Rayon İcra Hakimiyyəti tərəfindən 2006-cı ildə tikintiyə başlamaq icazəsi verildi. 2011-ci ildə çıxarış alandan sonra torpağıma çəkdirdiyim daş hasar həmin gecə "Suraxanı Oil" işçiləri tərəfindən söküldü. Bu nə dərəcədə qanuni və düzgündür?*

<u>Cavab:</u> Yazılmış məktubdan görünür ki, hazırda həmin torpaq vətəndaşın qanuni mülkiyyətindədir. Vətəndaş aydınlaşdırmalıdır ki, bu "Suraxanı OİL"ın torpağıdır, ya yox. "Suraxanı OİL"in ixtiyarı yoxdur ki, hər hansı bir məhkəmə qətnaməsi olmadan vətəndaşın mülkiyyətində olan torpağı onun əlindən alsın. Əgər "Suraxanı OİL"ın həmin torpağa hər hansı iddiası varsa, məhkəməyə müraciət etməlidir. Məhkəmə bu mübahisəni həll edib bir qərar çıxartmalıdır. Vətəndaş məhkəməyə müraciət etməlidir və iddianı da belə qoymalıdır ki, hasarın sökülməsi nəticəsində maddi zərər "Suraxanı OİL"dən tutulub ona ödənilsin. "Suraxanı OİL" də qarşılıqlı iddia qaldıra bilər ki, bu onun torpağıdır və bunu məhkəmədə sübut etməlidir.

***Şəhla Sultanova***

# Bu ildən VİP Həcc ziyarətləri təklif olunur

Azərbaycanlı zəvvarlar üçün Həcc ziyarətinə sənəd qəbulu başlayıb. Qafqaz Müsəlmanları İdarəsindən (QMİ) APA-ya bildirilib ki, Azərbaycandan Həcc ziyarətinə avtobusla gediş ləğv olunub. Azərbaycanlı zəvvarlar Həcc ziyarətinə yalnız təyyarə ilə gedə biləcək. Həcc ziyarətinə yollanmaq istəyən zəvvarlara iki qiymət təklif olunur. 3090 manat və 3850 manat. 3090 manat məbləğində pul ödəyən zəvvarlara sadə yemək veriləcək, onlar 8 və 16 nəfərin qaldığı otaqlarda gecələyəcəklər. QMİ VİP Həcc ziyarəti də təklif edir. Qiyməti 3850 manatlıq olan xidmətdən istifadə edəcək zəvvarlar 2 və 4 nəfərlik otaqlarda qala bilərlər. Onlara bahalı və dadlı yeməklər də veriləcək. Azərbaycanlı zəvvarlar Həcc ziyarətinə oktyabrın 12-dən etibarən yola düşəcəklər. Qeyd edək ki, 2011-ci ildə Həcc ziyarətinin qiymətləri avtobuslarla 2650 manat , təyyarə ilə 3750 manat olub.





Qarşılaşdığın problemlər, qanunsuz davranışla bağlı **"Qaynar Xətt"**ə yaz, hüquqşünaslardan məsləhət al. Suallara hər həftənin şənbə günü **saat 18:05-dən 19-00-a** qədər hüquqşünaslar canlı efirdə "Qaynar Xətt" verilişində cavab verəcəklər.

**"Qaynar Xətt"lə əlaqə vasitələri:**

İstənilən vaxtda qaynar xəttimizə **(012) 436 77 41** nömrəli telefona zəng edib sual və şikayətinizi səsləndirə bilərsiniz. Zənglər avtomat tərəfindən qəbul olunduğundan, rica edirik şikayətinizi bildirəndən sonra əlaqə nömrənizi də deyəsiniz ki, sizinlə geri əlaqə saxlaya bilək .

Yalnız canlı efir zamanı hər həftənin şənbə günü **saat 18:05-dən 19:00-a qədər efir@azadliqradiosu.az** elektron ünvanımıza e-mail şəklində, **(+99450) 7441017** nömrəsinə **SMS** şəklində şikayətlərinizi yaza bilərsiniz ki, suallarınız canlı efirdə cavablandırılsın.

İstənilən vaxtda suallarınızı, problemlərinizi foruma da yaza bilərsiniz. Həmçinin cavablar sayta göndərilmiş suallara əlavə olunacaq.


# "Əksəriyyətimizin övladı qüsurla doğulub"

Çernobıl əlili: «Deyirdilər Qazaxıstana taxıl biçininə gedirsiz»


Xələf Həsrətov

**Çernobıl Əlilləri İttifaqı Nəsimi rayon şöbəsinin sədri Xələf Həsrətov 26 il əvvəlki hadisələr barədə AzadlıqRadiosuna danışıb.**

1986-cı il aprelin 26-da Ukraynanın paytaxtı Kiyev şəhəri yaxınlığında yerləşən Çernobıl AES-də nüvə partlayışı zamanı 7000-ə yaxın insan həlak olub, 25000 insan radiasiya nəticəsində ömürlük şikəst qalıb. Hadisədən neçə illər keçsə də, radiasiyanın fəsadları hələ də Avropada dolanmaqdadır.

*- Xələf müəllim, necə oldu ki, Çernobıla getməyə qərar verdiniz?*

- O zaman respublika hərbi komissarı general Qasımov əmr verdi. Ehtiyatda olan hərbçi kimi, heç həkim müayinəsindən keçmədən Salyan kazarmasına apardılar. Orda hərbi forma geyindirdilər. Dedilər ki, bizim qəhrəman övladlarımızsınız, siz ehtiyatda olan hərbçilər təcrübəli olduğunuz üçün köməyiniz lazımdır. Demədilər ki, Çernobıl faciəsi ilə əlaqədar gedirsiz, dedilər gedib Qazaxıstanda işləyəcəksiz, filan yerdə hərbi xətlə. Əməkhaqqınız burda da qalacaq, orda da əməkhaqqı alacaqsınız.

*- Neçə nəfər idiniz?*

- Bir çağırışda 500-dən çox olardı.

*- Və heç kəs bilmirdi ki, hara gedir...*

- Yox, deyirdilər Qazaxıstana taxıl biçininə, taxıl daşımağa gedirsiz. Mən dedim axı bizim hərbi vəzifələrimiz başqadır. Dedi, sən sürücü işləyəcəksən. Mənim hərbi vəzifəm sürücü olub o zaman. Getdik. İvankova çatanda gördük ki, rus dilində yazılıb «Ehtiyatlı olun, radiasiya». Onda başa düşdük ki, bizi Çernobıl faciəsi ilə əlaqədar göndəriblər. Ancaq o zaman SSRİ Səhiyyə naziri Yevgeni Çazov və Müdafiə naziri Dmitri Yazovun birgə qərarı var idi. Onların əmrində göstərilir ki, SSRİ vətəndaşlarından yaşı 40-ı ötmüş, 2 övladı olanlar könüllü surətdə ezam olunur. Qafqaz respublikalarından ən çox azərbaycanlıları ora səfərbər ediblər. Burdan ehtiyatda olan hərbçiləri, subayları göndəriblər. Əksəriyyətinin də övladlarında indi fiziki qüsurlar var, anormal doğulmuş övladları var.

*- Belə başa düşdüm ki, siz düşmürdünüz o siyahıya...*

- Düşmürdüm, əlbəttə ki. 38 yaşım var idi. Bir də ki, o zaman mənim 1 övladım var idi.

*- Çoxları getmişdimi ora? Hər kəs cavan idi, yoxsa o şərtlərə uyğun olanlar da vardı?*

- Getmişdi deyəndə...Getmək yox, məcburən göndərilmişik biz. Heç kəs könüllü getməyib. O vaxt hərbi komissar Qasımov Moskvada hesabat verəndə deyirdi ki, bizdə könüllülər çoxdur. Axırda o barədə biz iddia qaldırdıq. Heç bir hərbi komissarlıqda özü ərizə yazıb gedən könüllü tapılmadı.

*- Azərbaycandan orda iştirak etmiş 7257 nəfərdən heç bircə nəfər də könüllü getməyib?*

- Yoxdur belə biri. Könüllü yoxdur. Könüllü yalnız müəyyən tikinti təşkilatları vasitəsilə gedənlər ola bilərdi. Onlar da mülki vətəndaşlardır. Mülki vətəndaşları isə Çernobıla yox, başqa şəhərlərə yaşayış massivləri inşa olunmaq üçün aparırdılar.

*- Sizinlə birlikdə orda başqa xalqların da nümayəndələri çalışırdı. Onlar da azərbaycanlılar kimi məcburi gətirilmişdi?*

- Yox, onlarda könüllü gələnlər çox idi. Bizdən çox yaşlı idilər. Ətrafımdakı şəxslərdən ən çox bizimkilər idi.

*- Bəs necə oldu ki, Azərbaycan hökuməti sizi məcburi göndərdi, amma başqa respublikalardan hər kəs könüllü və şərtlərə uyğun olaraq seçildi?*

- SSRİ Çernobıl İttifaqının prezidenti Qrişin Moskvada özü etiraf etdi ki, respublika hərbi komissarı Qasımov öz vəzifəsinə, rütbəsinə hörmət üçün edib bunu.

***Durna Səfərli***

# Martin Şuls Azərbaycanla ehtiyatlı olmağa çağırdı


Martin Şuls

**««Eurovision» mahnı müsabiqəsinin Bakıda keçirilməsi Azərbaycanda insan haqları barədə daha çox debatlara səbəb olur. Belə yarışmaya qatılanlar Avropa deputatlarını da hökumətlərə daha çox təsir göstərməyə sövq edir». Bunu Avropa Parlamentinin prezidenti Martin Şuls AzadlıqRadiosunun Brüsseldəki müxbiri Rikard Jozwiak'ın suallarına cavabında deyib.**

Avropa Parlamentinin prezidenti düşünür ki, Azərbaycan kimi ölkələrə beynəlxalq təzyiqlər son dərəcə ehtiyatla edilməlidir: «Mən 18 ildir Avropa Parlamentinin deputatıyam. Təcrübəm əsasında deyə bilərəm ki, həddən artıq avtoritar, diktatura rejimlərində insanların gündəlik həyatını yüngülləşdirmək üçün son dərəcə ehtiyatlı olmaq lazımdır... Həmişə münasib vaxtı gözləmək lazımdır. Bu vaxt nəzərə alınmasa, həmin ölkələrdə insanlar daha artıq təzyiqlərə məruz qala bilərlər. Adətən rejimlərə beynəlxalq təzyiqlərin artması onların da öz xalqlarına təzyiqi artırmalarına səbəb olur. Daha çox iztirablara bais olmamaq üçün ehtiyatlı olmaq lazımdır».

Martın sonunda Avropa Parlamenti Azərbaycanla Avropa Birliyi arasında assosiasiya sazişi üzrə danışıqların gedişinə dair qətnamə qəbul edib. Qətnamədə Ermənistan qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması, insan haqları sahəsində demokratik islahatların həyata keçirilməsinin vacibliyi vurğulanır.

Hakim Yeni Azərbaycan Partiyasının təmsilçiləri bir qayda olaraq ölkədə insan haqlarının vəziyyətindən narahatlıqların əsassız olduğunu bildirirlər. Onlar deyirlər ki, belə cəhdlər hansısa ölkələrin maraqlarının təmin olunması üçün Bakıya təzyiqdir.

# İsrail-Azərbaycan: Nağıllarla həqiqət arasında...

*«Azərbaycanın İsrail siyasəti səmimi siyasət deyil». Bunu AzadlıqRadiosunun «İşdən sonra» proqramında politoloq Ərəstun Oruclu Azərbaycan-İsrail münasibətlərini şərh edərkən deyib: «Bu ölkə ilə diplomatik münasibətlər zəruri çərçivədə deyil. İsraildə Azərbaycan səfirliyi fəaliyyət göstərmir. Deyirlər ki, səfirliyin açılmamasının səbəbi İranın reaksiyasıdır. Azərbaycan İsraillə 4 milyard dollarlıq ticari dövriyyəyə malikdirsə, strateji əməkdaşlıq həyata keçirirsə, niyə səfirlik açılmır? İranın buna nə dəxli var?».*

Politoloq iddia edir ki, İsrail və yəhudi diasporuna münasibətdə rəsmi Bakı daha çox iqtisadi maraqlara üstünlük verir. Dünyada nüfuzlu yəhudi iqtisadi çevrələri var və onların iqtisadi rolu rəsmi Bakını daha çox maraqlandırır.

Azərbaycanda İsrail vətəndaşlarına və diplomatlarına qarşı terror ittihamı ilə edilən həbslərə toxunan Ə.Oruclu bildirir ki, əsaslılığı şübhə doğuran bu həbslər ilk növbədə Azərbaycan-İsrail münasibətlərinə ziyandır: «İnsanların həbs olunması artıq kütləvi hal alıb və zənnimcə, burda maraqlı olmayan dövlət elə İsraildir. Azərbaycanda məhkəmə və təhlükəsizlik orqanlarına inam olmadığından məqsədli şəkildə belə bir fikir ortaya atılır ki, bu həbslərin arxasında İsrail dayanır. Məqsəd İranı terrorçu dövlət kimi təqdim etməkdir».

İsrail-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Arye Gutisə deyir ki, tam məlumatlı olmasa da, bu məsələnin şişirdilməsinin əleyhinədir: «İnanmıram ki, MTN hansısa əsas olmadan insanları həbs etsin. İran bu gün və keçmişdə dünyanın müxtəlif ölkələrində İsrailə qarşı terror aktları həyata keçirib».


Ərəstun Oruclu

Arye Gut İsraillə Azərbaycan arasındakı münasibətlərin daha ciddi təməl üzərində qurulduğunu deyir. «Azərbaycan Avropadan, Amerikadan ala bilməyəcəyi silahları İsraildən alır», - deyə o, qeyd edib.

**Müzakirəni tam olaraq AzadliqRadiosu.az saytında dinləyin.**

***Xədicə İsmayılova, Araz Bayramov***

# Almaniya prezidenti Timoşenkoya görə Ukraynaya getmədi


Joachim Gauck

**Almaniya prezidenti Joachim Gauck həbsdə olan keçmiş Baş nazir Yulia Timoşenkonun səhhəti və saxlanma şəraitinə görə Ukraynaya səfərini təxirə salıb. Prezidentin nümayəndəsi bildirib ki, J.Gauck Mərkəzi Avropa ölkələrinin mayın 11-12-də Yaltada keçiriləcək toplantısına qatılmayacaq. Almaniya mətbuatının yazdığına görə, prezident bu barədə kansler Angela Merkellə məsləhətləşdikdən sonra qərar verib.**

Y.Timoşenko həbsxanada döyülməsinə etiraz olaraq aprelin 20-də aclığa başlayıb. O, xeyli vaxtdır ki, kürəyində baş qaldırmış ağrıdan əziyyət çəkir. Almaniya hökuməti onu ölkədəki klinikalardan birində müalicə etməyə hazır olduğunu bildirib. Keçmiş baş nazir hazırda 7 illik həbs cəzası çəkir. O, hakimiyyətdə olduğu dövrdə Rusiya ilə qaz müqaviləsi imzalanarkən səlahiyyətlərini aşmaqda təqsirləndirilir.

## Şeir onluğu onlayn səsverməyə çıxarıldı



"Ədəbi Azadlıq-2012" Milli Müsabiqəsinin şeir onluğu on-line səsverməyə çıxarıldı. AzadlıqRadiosunun mədəniyyət portalı olan oxuzalı.az saytında keçirilən sorğuda oxuculara onluqdan ən çox bəyəndikləri müəllifə səs vermək imkanı yaradılır. Sorğu aprelin 27-dən mayın 3-dək davam edəcək. Nəticələr əsasında 3 səbət formalaşacaq. 1-3-cü, 4-7-ci və 8-10-cu yerlər. Müsabiqənin münsiflərinə təklif ediləcək ki, onlayn səsvermənin nəticələrinə uyğun olaraq hər səbətdən yalnız 1 müəllifə əlavə bal versinlər, yəni 1-3-cü yerləri tutan müəlliflərdən birinə 7 bal, 4-7-ci yerləri tutan müəlliflərdən birinə 4 bal, 8-10-cu yerləri tutan müəlliflərdən birinə isə 1 bal versinlər. Bu ballar həmin müəlliflərin müsabiqənin 1-ci (imzasız əsərlər arasından seçim) və 2-ci (onluğun seçilməsi zamanı) aldıqları ballara əlavə ediləcək. Münsiflər heyətinin üzvü on-line səsvermənin nəticələrini qəbul etməyə də bilər.

## «Ferrari»sini satmış rahib" Azərbaycan dilində




*Bakı "Kitab Klubu" populyar Kanada yazarı və motivasiya üzrə mütəxəssisi Robin Şarmanın "Ferrari»sini satmış rahib" kitabını Azərbaycan dilində çap edib. Pritça şəklində yazılmış kitab mənəvi böhran keçirən varlı bir hüquqşünasın - Culian Mentlin necə özündə güc tapıb yeni həyata başlaması haqqdadır.*

Qədim mədəniyyətlərə, fəlsəfəyə dalması onun həyatını dəyişir və o, sevinclə düşünməyi; öz təyinatına uyğun yaşamağı, ağlın gücünü dərk edib cəsarətlə hərəkət etməyi, ən böyük sərvət olan vaxtı qorumağı, başqa insanlarla qarşılıqlı münasibətləri dəyərləndirməyi, indiki zamanla yaşamağı, öyrədən təsirli, müdrik və praktik bilikləri kəşf edir, Robin Şarmanın bu kitabı haqqında Paulo Koelyo belə deyib: «Bu cəlbedici kitab həm öyrədir, həm də heyran edir». Şarmanın kitabı özünə rəhbərlik etməyin məxsusi dərsliyi, gerçək uğur və xoşbəxtliyin səmərəli düsturudur. «Ferrari»sini satmış vəkilin etdiyi kimi, dayanmaq və hər şeyi yenidən başlamaq heç vaxt gec deyil.

## Aktyor səhnədə səhvən intihar etdi



Səhnədəki tərəfdaşları bədbəxt hadisənin baş verdiyini gec anlayıblar

*Şiələrin imam Hüseynin müsibətini anladan şəbeh tamaşaları kimi Latın Amerikasında da Pasxa zamanı İsa peyğəmbərin həyatının son günlərini təsvir edən pantomim tamaşaları çox populyardır. Braziliyanın San-Paulu ştatında göstərilən pantomim tamaşası zamanı İsa peyğəmbəri satmış İuda rolunu oynayan aktyor Tiaqo Klimek səhnədə səhvən intihar edib.*

O 4 dəqiqə kəndirdən asılı qalıb. Səhnədəki tərəfdaşları bədbəxt hadisənin baş verdiyini gec anlayıblar. Xəstəxanaya çatdırılsa da, aktyor bir neçə gündən sonra vəfat edib. Polis hadisənin səbəblərini araşdırır. Versiyalardan birinə görə, aktyorun əbanın altından geydiyi xüsusi jilet onun əynində sürüşüb. Bu həmin jiletdir ki, özünü asarkən kəndirin onu boğmasına imkan verməməli idi.

## Ədalət Şükürov:

# «Müğənnilər piratlara görə disklərindən pul qazana bilmir»

**Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanov Azərbaycanda yazılan elmi əsərlər arasında son zamanlar xeyli plagiat iş olduğunu bildirir. Xüsusilə Rusiyadan götürülmə plagiat işlər üstünlük təşkil edir, bu işlər tərcümə olunmuş əsərlərdir. Kamran İmanov hesab edir ki, indi Azərbaycanda müəlliflik hüquqları daha çox elm sahəsində pozulur: «Biz yalnız qeydiyyata gələn və ya bizə göndərilən əsərlər üzərində araşdırma aparırıq. Elmi işlərə, xüsusən də dissertasiyalara nəzarəti Ali Attestasiya Komissiyası aparır. Plagiatlığa gəlincə, bəli, bizə hansısa elmi əsərlər, kitablar və sairənin köçürüldüyü barədə müraciətlər olur. Həmin əsərlər yoxlanılır və çox vaxt deyilən həqiqət olur».**

Kamran İmanov deyir ki, plagiat təbiət və humanitar elmlərə aid əsərlərdə aşkarlanıb. Müəlliflik hüquqlarının daha çox pozulmasına görə ikinci yeri media, üçüncü yeri isə musiqi sahəsi tutur. Azərbaycanın əməkdar artisti Ədalət Şükürov isə deyir ki, bəzən onun yazdığı mahnılarla təxminən üst-üstə düşən musiqilər olur. Amma onun fikrincə, müğənnilər plagiatdan daha çox, piratçılıqdan ziyan çəkirlər: «Əsas problem odur ki, müğənninin yazdırdığı diskin birini alıb çoxaldaraq satırlar. Bu da səsyazma studiyasının istehsalı olan disklərin satılmasına imkan vermir. Bu günədək müğənnilərdən heç kim heç vaxt disklərdən pul qazana bilməyib». Ədalət Şükürov hesab edir ki, bu məsələləri tənzimləyən qanun olmalıdır. Onun bildirdiyinə görə, belə bir qanun hazırlanır. Amma deyir, yalnız qanunla da iş bitmir. Həmin qanunun icrasına da nəzarət olunmalıdır ki, plagiat problemi aradan qalxsın.

**Yazının tam mətnini AzadliqRadiosu.az saytında oxuyun.**

***İlqar Rəsul***

# Asteroiddən qorxmayın



**"Bir ildə dünyada istehsal olunan daxili məhsul 70 trilyon dollardır. Dünyada hər bir adama amerikalıların indiki həyat səviyyəsini təmin etmək üçün dünya iqtisadiyyatı indikindən 5 dəfə böyük olmalıdır- bir ildə 330 trilyon dollarlıq mal və xidmət istehsal olunmalıdır". Bunu Planetary Resources şirkəti bildirir və hesab edir ki, çıxış yolu asan resurslardadır. Asan resurslar isə kosmosdakı faydalı qazıntılardır.**

Google şirkətinin yaradıcılarından olan Larry Page-in, məşhur Hollivud rejissoru James Cameronun da dəstək verdiyi layihəni Planetary Resources aprelin 24-də elan edib. Bu plana görə, Planetary Resources korporasiyası Yerin yaxınlığındakı asteroidlərdən faydalı qazıntılar, xüsusilə nadir metallar çıxaracaq. Şirkətin yaradıcılarından biri Eric Anderson Space.com saytına deyir: "Bu qazıntılar çox qiymətli və çox asan əldə olunandır. Yerə yaxın asteroidlər Günəş sisteminin əlçatan meyvələridir". Planetary Resources kosmosda nadir metal istehsalına yaxın bir neçə ilə başlamağı düşünür.

**ASTEROİDLƏR**

Space.com saytı yazır ki, asteroidlər daşdan, buzdan və ya metaldan ibarət göy cisimləridir. Məlum asteroidlərin ölçüsü 1 metrdən 975 km-ə kimidir. Planetary Resources hesab edir ki, 1500-ə qədər asteroiddən faydalı qazıntılar almaq olar. Asteroidin tərkibini bilmək üçünsə asterodə getmək lazım deyil. Onun içində nələrin olduğu spektral analizlə bilinir. Yəni ondan gələn şüanın analizi müəyyən edir ki, bu asteroiddə hansı qiymətli metallar var.

**OYUNUN MÜKAFATI**

Yerə düşən meteoroitlərin, daşların tərkibi asteroidlərin platinlə zəngin olduğunu göstərir. Platin elektronikada geniş istifadə olunan, kimyəvi reaksiyalarda katalizator kimi işlənən çox qiymətli metaldır. Təkcə avtomobil sənayesi bu il 7 milyard dollarlıq platin işlədəcək. Asteroidlər palladiumla da zəngindir. Palladium öz xassələrinə və istifadəsinə görə platinə yaxındır.

**ASTEROİDLƏR HARDADIR?**

Yerə yaxın asteroidlərin böyük əksəriyyəti Marsın Günəş ətrafındakı orbiti boyunca yerləşib.

Buna asteroid "kəməri" deyirlər. Mars isə Yerin düz qonşuluğundadır.

**FAYDALI QAZINTI NECƏ ALINACAQ?**

Planetary Resources Yerin ətrafında orbitə xüsusi teleskop çıxaracaq. Bu teleskop asteroidlərin tərkibini öyrənəcək. Qiymətli asteroid tapan kimi həmin asteroidə tərəf xüsusi robot göndəriləcək, o robot asteroidin içindəki faydalı qazıntıları çıxaracaq. Asteroid xırda olanda isə onu içi boş qaba oxşar xüsusi cihaz tutub Yerə gətirəcək.

**NASA**

Belə şübhələr var və Planetary Resources öz layihəsini təqdim edəndə bildirib ki, bu, elmi fantastika deyil. Dünyanın ən nüfuzlu kosmik agentliyi olan Amerikanın NASA agentliyi hələ bir neçə il qabaq asteroidlərə adam göndərməkdən danışırdı.

Ancaq NASA bildirirdi ki, bunun üçün xüsusi texnika hazırlanmalıdır. Çünki, məsələn, ən böyük asteroidlərdə cazibə qüvvəsi Aydakından 6 dəfə azdır. Asteroidlərdən faydalı qazıntı çıxarmaq ideyası isə NASA-da 1970-ci illərdən var. NASA asteroidi xüsusi raketlə istiqamətləndirərək Yerə gətirməyi planlaşdırırdı.

***Elxan Nəsibli***

# Mehriban Ələkbərzadə: "Qarabağ haqda filmdən imtina etməli oldum"

**Rejissor, telejurnalist Mehriban Ələkbərzadə "Pen klub" verilişinin qonağı olub**

• 3 gədə məmuru dövlət adlandırmazdım...

• Mən güclüləri sevirəm, istər Stalin olsun, istər İsgəndər olsun, istər Bağırov olsun.

• 1918-ci illə bağlı elədiyim filmə kənar əllər uzandı. Bu daha ağır idi.

• Cənnət Səlimovanın fəaliyyətindən bədbinəm. Gənc Tamaşaçılar Teatrında məğlubiyyəti məğlubiyyət ardınca görürəm.

*- Siz Mircəfər Bağırov haqda film çəkdiz. Bağırova ikili münasibət olduğu üçün film az tənqid olunmadı. İndi də ziddiyyətli, birmənalı qəbul edilməyən, bəzi tədqiqatçılara görə, Şərqi inkişafdan saxlayan Əmir Teymur haqda tamaşa hazırlamaq istəyirsiz...*

- Mən, ümumiyyətlə, güclü şəxsiyyətləri sevirəm. Güclü şəxsiyyətlər birmənalı qəbul olunmur. Birmənalı, hamı tərəfindən yaxşı qəbul olunan adamlardan qorxulusu yoxdur. Ən güclü insanlar, tarixi dəyişənlərsə birmənalı qəbul edilə bilməz. Və mən güclüləri sevirəm, istər Stalin olsun, istər İsgəndər olsun, istər Bağırov olsun. O insanlar ki, insan gücündən daha artığına qadirdir, onlar həmişə məni cəlb ediblər. Bu, mənim zəif damarımdır.

*- Hansı dövrü çəkmək istərdiz?*

- Şah İsmayıl, ya da Nadir şah. Azərbaycana qürur gətirən, ərazisinə sahiblik edən şəxsiyyətləri.

*- Potensial varmı çəkməyə?*

- Bir bədii film üzərində iş gedirdi. Adını deməyəcəm, bəlkə də çox adam bilir söhbət nədən gedir. Qarabağ haqda, müasir tarixlə bağlı film idi. Bu filmə müəyyən məbləğ ayrılmışdı. Həmin məbləği o qədər qopartdılar ki... Axırda dedilər ki, rejissor qrupuna və başqa qruplara pul verilməməlidir, ancaq film çəkilməldir, döyüş səhnələri çəkilməlidir, yalnız bundan sonra kimlərsə nəsə, o da bəlkə qalsa... Onda mən vadar oldum, uzaqlaşdım.




Mehriban Ələkbərzadə

**Müsahibəyə AzadliqRadiosu.az saytında qulaq asın.**

***Şahnaz Bəylərqızı***

# İnsan idi, kukla oldu


Valeriya Lukyanova

21 yaşlı ukraynalı model Valeriya Lukyanova internetdə ən məşhur qadına çevrilib. İndi Rusiyada və Ukraynada ən çox ondan danışırlar. Valeriyanı məşhurlaşdıran isə Barbie kuklasına oxşamasıdır. Valeriya Lukyanova təkcə üz yox, həm də bədən quruluşuna görə də Barbie kuklasına çox oxşayır. Barbie kimi uzun sarı saçları, iri mavi gözləri və böyük sinəsi var.

Valeriya «Facebook»da və «YouTube»da çoxlu şəkillərini və videosunu yerləşdirib. Burada onun makiyajsız şəkilləri də var. Baxanların çoxu deyir ki, Barbie kuklasına oxşadılması üçün şəkillərə kompyuter proqramları ilə düzəliş edilib.

Ancaq Valeriya plastik cərrahiyə keçirmədiyini iddia edir. Deyir ki, o, Barbie kuklasına təbiətən oxşayır. Gözləri haqqında o, bunu deyir: «Gözlərimdə dəqiq linza yoxdur. Bu, gözlərimin təbii rəngidir. Bunu mənə təbiət bəxş edib. Bu, yaşıl rəngdir. Mən bu rəngi çox xoşlayıram. Amma onu dəyişməyi də üstün tuturam».

Valeriyanı bəyənənlər də var, bəyənməyənlər də. Bəziləri onun çox cazibədar olduğunu yazır. Ancaq heç də bütün istifadəçilər bu oxşarlığı bəyənmir. İstifadəçilərdən biri yazıb ki, «o, çox gülməli görünür».

Manhetten Plastik Cərrahiyə Klinikasının direktoru, doktor Anthony Labrunadeyir ki, bir insanın Barbie kuklasına bənzədilməsi üçün sinəsi, ombaları böyüdülməli, belindən bir neçə qabırğa çıxarılmalıdır. Professor Malcolm Roth isə plastik əməliyyatların gənc qızlar üçün təhlükəli olduğunu bildirir.

# Dünyanın ən kiçik "Quran"ını xristian qoruyur



Dünyada ölçüsünə görə ən balaca "Qurani-Kərim" Birləşmiş Ərəb Əmirliklərindədir. Maraqlıdır ki, kitabın sahibi xristiandır. Ən balaca "Quran" nüsxəsinin 400 il yaşı var. 550 səhifədən ibarət bu müqəddəs kitabın ölçüləri 5.1 sm və 8 sm-dir. Bu nadir nəşr Qüds tərəfdə tapılıb və hazırda Muhannad Ameel Issa adlı şəxsə malikdir. 'Al Jazeera'ya müsahibəsində Muhannad deyib ki, "Quran"ı onun əcdadları tapıb və sonradan bu kitab nadir inci kimi nəsildən-nəslə ötürülüb.

Ameel İssanın ailəsi xristian olsa da, daim müsəlmanlarla yanaşı yaşayıb: "Mən həmişə İslamın içində olmuşam, müsəlmanların yanında yaşamışam. Bizim aramızda heç vaxt problemlər olmayıb, həmişə əmin-amanlıq içində yaşamışıq".

Muhannad Ameel İssa "Quran"ı satmayacağını, kitabın onun üçün qiymətsiz nadir bir nüsxə olduğunu bildirib.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | AzadlıqFM / Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Korrupsiyametr/ Qaynar Xətt |
| 9:00 | İz / Korrupsiyametr / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 12:05 | AzadlıqFM / Qaynar Xətt / Pen Club / İz / Korrupsiyametr |
| 13:05 | Qərb musiqisi |
| 14:05 | 14-24 / Qaynar Xətt / Azadlıq Bölgələrdə / Pen club / AzadlıqFM / İz / Korrupsiyametr |
| 15:00 | Xəbərlər (şənbə, bazar) |
| 15:05 | Qərb musiqisi. AzadlıqFM / Korrupsiyametr (şənbə-bazar) |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər (şənbə, bazar) |
| 16:05 | Qərb musiqisi / İşdən sonra (şənbə, bazar) |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra / Korrupsiyametr (hər cümə axşamı) |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Kontekst / Online-vəkil (şənbə) |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Qaynar Xətt / Pen club |
| 20:30 | 14-24 / Qaynar Xətt / İslam və demokratiya / Pen club / İz / Korrupsiyametr |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Qafqaz Qovşağı |
| 23:00 | Xəbərlər |
| 23:05 | İşdən sonra / İz / Azadlıq bölgələrdə / 14-24 |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Xarici Dillər Universiteti qarşısında yol nişanı




*13.03.2012. Yüklədi: Xanlar M.*

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## Multimedia

## Son videolar:

**VİDEO Və FOTOLAR**



Azərbaycanda (VIDEO)

Çernobıl əlilinin vəfatından sonra ailəsi necə yaşayır?



Azərbaycanda (VIDEO)

Xədicə İsmayılova Bakı prokurorluğuna cavab verir



Dünyada (VİDEO)

Suriyada partlayışdan həvəskar görüntüləri



Azərbaycanda (VIDEO)

Bakıda toy qiymətləri...



Fotoqalereya

Prezidentlər və uşaqları



Multimedia

İsa Qəmbər və Əli Kərimlinin qol saatları neçəyədir?

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

**Bizimlə əlaqə:**

**E-mail:** efir@AzadliqRadiosu.az

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Çap Evi" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz